# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Elmin İnkişafı Fondunun Gənc alim və mütəxəssislərin**
**4-cü birgə "Mənim ilk qrantım"müsabiqəsinin**
**(EİF/GAM-4-BGM-GİN-2017-3(29)) qalibi olmuş**
**layihənin yerinə yetirilməsi üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Azərbaycanda mədəni müxtəliflik multikultural turizmin inkişafının strateji faktoru kimi və onun rəqəmsal mühitdə təşviqi**

Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Cəfərquliyeva Mayya Rzaqulu qızı**

Qrantın məbləği: **25 000 manat**

Layihənin nömrəsi: **EİF/GAM-4-BGM-GİN-2017-3(29)-19/19/5-M-09**

Müqavilənin imzalanma tarixi: **06 aprel 2018-ci il**

Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**

Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2018-ci il – 01 may 2019-ci il**

Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
|---|---|
| | *(burada doldurmalı)*<br>- ***Azərbaycanda mövcud olan "multikulturalizm" fenomeni analiz olunmuşdur:***<br>Layihə üzrə elmi-tədqiqat işi Azərbaycan multikulturalizminin konseptual əsaslarının təhlil olunmasına həsr olunmuşdur. Tədqiqat fərdiliyin müxtəlif təzahürlərinin inkişaf etməsinə xidmət edən Azərbaycan multikulturalizminin sosial hadisə kimi öyrənilməsinə yönəlmişdir. Tolerantlıq və sülh kimi bəşəri dəyərlər əsasında Azərbaycanda inkişaf edən mədəni müxtəlifliyin etnik və dini diskursları təhlil olunmuş, müvafiq statistik göstəricilər araşdırılmışdır. Azərbaycanda multikultural strategiyalar daha çox hansı sahələrdə tədbiq olunsa gələcəkdə dividendlərin alınmasının imkanları təhlil olunmuşdur. Azərbaycan Respublikasında yaşayan milli azlıqlar, azsaylı xalqlar və etnik qruplar haqqında rəsmi statistik məlumatlara və elmi ədəbiyyata əsaslanaraq araşdırma aparılmış, faktoloji material yığılmış, təhlil olunmuş və |

ümumiləşdirilmişdir.

Tədqiqat zamanı əldə olunan nəticələr əsasında hər bir milli azlıq, azsaylı xalq və etnik qrup haqqında dolğun sistemləşmiş material hazırlanmışdır. M.R. Cəfərquliyeva tərəfindən elmi tədqiqat nəticələrini əks etdirən "Azerbaijan's formula of multiculturalism: concepts, definitions and aspirations" adlı məqalə yazılmış **(hal-hazırda çapdadır).** 23-24 may 2018-ci il tarixində Azərbaycan Milli Elmlər Akademiyasının Qafqazşünaslıq İnstitutu tərəfindən keçirilən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr" Beynəlxalq Elmi Konfransında qeyd olunan mövzu üzrə məruzə edilmişdir. Bundan əlavə "Специфика применения мультикультурных стратегий в туризме" adlı məqalə Rusiyanın Volqoqrad şəhərində keçirilən «Müasir aqrar təhsilinin problemləri: məzmun, texnologiyalar, keyfiyyət" Beynəlxalq Elmi Konfransının materiallarında çap olunması üçün təqdim olunmuşdur (hal-hazırda çapdadır). Həmçinin hesabat dövründə ABŞ-ın Phoenix şəhərində yerləşən Mesa Community College-də 25 iyun, 2018-ci il tarixində keçirilən Beynəlxalq Simpoziumda "Multiculturalism in Azerbaijan: "identity policy" and "the policy of recognition" mövzusunda məruzə edilmişdir. Çıxış zamanı Azərbaycan multikulturalizminin siyasi strategiya kimi əsas xüsusiyyətləri izah edilmiş və ölkədə dini müxtəlifliyi əks etdirən 12-dəqiqəlik "Land of tolerance" video-çarxı nümayiş edilmişdir.

- ***Multikulturalizmin turizmin inkişafına təsirin rolu və şərtləri müəyyən edilmişdir:***

Çoxmədəniyyətlilik mühitində yeni turizm növü - multikultural turizmin inkişafı üçün potensialın aşkarlanması, multikulturalizm faktorunun regionların cəlbedici turistik imicinə təsirini oyrənmək məqsədilə tədqiqat işləri aparılmışdır, SWOT analiz aparılması üçün strategiya və meyarlar müəyyən edilmişdir. Azərbaycanda multikultural destinasiyalar təyin olunmuş, müəyyən edilmiş rayonlar üzrə əhalinin milli tərkibi, linqvistik xüsusiyyətləri, mövcud olan dini obyektlər (kilsələr, sinaqoqlar, alban xristian abidələri və qeyri-islam dini icmalarının ibadət evləri) haqqında məlumatın sistemli şəkildə əks olunduğu 108-səhifədən ibarət kitabça işlənib hazırlanmışdır. Kitabçada qeyd olunan məlumatlar rəsmi mənbələrə (Azərbaycan Respublikasının Dövlət Statistika komitəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təqdim etdiyi məlumatlar) istinad olunur.

- ***multiculturaltourism.az veb saytı üzrə görülmüş işlər:***

  draw.io online konstruktordan istifadə edərək saytın sxemi hazırlanıb, sxemdə qrafiki hissələr və kontent müəyyən edilib. Həmçinin saytda istifadə olunacaq logotip GraphicSprings vasitəsilə hazırlanıb. İT-mütəxəssislə keçirilən görüş zamanı Saytın dizaynı və verstkası həm desktop həm də mobil (planşet,smartfon) avadanlıqlar üçün hazırlanması, bunun üçün css frameworklardan Bootsrap-dan istifadəsi məqsədəuyğun hesab olundu. Saytın yığılması üçün PHP,JQURY,Codeİgniter framework-undan istifadə olunması tövsiyyə olundu. Səhifənin əsas bazası olaraq MySql, hostinqdə əməliyyat sistemi olaraq Apache qurulması məqsədəuyğun hesab edildi. Nəticə olaraq veb saytın texniki tapşırığı hazırlanmışdı. İT-mütəxəssislə birgə fəaliyyət nəticəsində qurulacaq veb saytın əsas tələblər toplusu tərtib

olunmuş, qoyulmuş texniki tapşırıqlar əsasında mütəxəssis tərəfindən mərhələlər üzrə görüləcək iş planı müəyyən edilmişdir. Veb saytın modullarını, texniki imkanlarını, görüləcək işləri və bəzi informasiya sistemlərinə inteqrasiyası təmin edilməsinin mexanizmi işlənmişdir. göstərməkdir. Qeyd etmək lazımdır ki, XML texnologiyasının tətbiqi ilə veb saytın mobil vasitələrdə istifadə olunması nəzərdə tutulmuşdur. Sistem Təhlükəsizliyini təmin etmək məqsədilə sistem səviyyəli əlavə skriptlərdən (ssenari tipli əməliyyatlardan) istifadə olunması müəyyən edilmişdir.

- ***Azərbaycan regionlarına ekspedisiyalar nəticəsində çoxmədəniyyətlilik muhitində multikultural turizmin inkişafı üçün potensial analiz olunmuşdur, foto və video materiallar toplanmışdır:***

Layihə üzrə elmi-tədqiqat işi Azərbaycanın müxtəlif bölgələrində mədəni plyuralizmin araşdırmasına, ölkə ərazisində yaşayan xalqların milli dəyərlərin, məskunlaşma xüsusiyyətlərinin, adət-ənənələrinin öyrənilməsinə həsr olunmuşdur.

Quba rayonuna ekspedisiya zamanı ərazisində yaşayan "Şahdağ qrupu" xalqları ilə bağlı araşdırma aparılıb. Quba ərazisində xınalıqlılar, qrızlılar, buduqlular, haputlular, ceklilər, əliklilər və yergüclülər adlanan etnik qrupların məskunlaşdıqları ərazilər müəyyən edilmişdir. Araşdırma zamanı məlum olub ki, elmi mənbələrdə bu etnosların sayının yeddi olması və hamısının Quba rayonunun ərazisində yaşadığı qeyd olunsa da, real araşdırma zamanı məlum oldu ki yergüclülər təmamilə digər yerlərə və xüsusilə Xaçmaz rayonun ərazisinə köçdükləri üçün, artıq Quba rayonunun ərasisində kompakt halda yaşamırlar. Quba şəhərində, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən qeydiyyatdan keçmiş dörd məsciddə – Cümə Məscidi, Hacı Cəfər Məscidi, Ərdəbil Məscidi, Səkinə Xanım Məscidi – və 1 tikintisi yeni tamamlanmış lakin hələ DQİDK-dan qeydiyyatdan keçməmiş və əhali tərəfindən "Ağ Məscid" olaraq adlandırılan məscidlərlə bağlı araşdırma aparılıb. Məscidlərin foto və video görüntüləri əldə olunub. Qubanın Qırmızı Qəsəbə məntəqəsində müşahidələr aparılıb, Qəsəbədə yerləşən "Giləki" və "Altı günbəz" sinaqoqların foto görüntüləri əldə olundu, web-səhifədə "Qırmızı qəsəbə şəkillərdə" başlığı adı altında nəzərdə tutulan bölmə üçün qəsəbənin küçələrinin, spesifik tikililərin, qədim eyvanlarının, meydanlarının və s. əks etdirən vizual materiallar toplanmışdır.

Qusar rayonunda aparılan müşahidələr əsasında Kuzunqışlaq və Kuzun kəndi arasında turizm marşrutu ləzgi xalqının adət-ənənəsinə və tarixi keçmişinə səyahət baxımından cəlbedici turizm destinasiyası kimi müəyyən edilmişdir.

Lənkəran rayonuna səfər zamanı multikultural turizmin inkişafı üçün güclü tərəflərlə zəif tərəflər arasında münasibət müəyyən edildi, bu növ turizmin inkişafı üçün rayon üzrə mövcud potensialın SWOT üsulu ilə təhlili aparılmışdır. Lənkəranda multikultural turizm inkişafı üçün əlverişli mühitə malik olan məntəqələrdə (Məsələn: Boladi, Bürcəli, Daştatük, Şıxəkəran, Kərgəlan kəndi və s.), dini abidələr yerləşdiyi ərazilərdə (Məsələn: "Şeyx Zahid türbəsi" - Şıxakəran kəndi, "Seyid Xəlifə türbəsi" - Cil kəndi, "Lənkəran İmam Hüseyn məscidi" – "Qalayçılar məscidi" adı ilə də tanınan Lənkəran şəhərində yerləşən məscid və s.) talış xalqına xas olan ənənəvi üsulla çəltik və çay becərilən kəndlərdə (Məsələn: Havzova, Girdəni və s.) müşahidələr aparılmışdır, foto görüntülər toplanmışdır. Rayona səfər zamanı Lənkəran Turizm İnformasiya Mərkəzinin müdiri Əzimov İlqar Firudun oğlundan müsahibə alınıb. Ekspertin fikrinə əsasən, regionun beynəlxalq və respublika səviyyəsində təbliğ olunması prosesinin daha da intensivləşməsi vacibliyi vurğulandı, Lənkəran rayonunda aparılmış zəngin arxeoloji qazıntılar yerlərinin turizm marşutlarına daxil olunması məqsədə uyğun hesab olunmuşdur. Lənkəran rayonu üzrə multikultural obyektlərini əks etdirən foto görüntülər toplanmışdır;

Qəbələ rayonuna baş tutmuş ekspedisiya zamanı çoxmədəniyyətlilik muhitində yeni turizm növü - multikultural turizmin inkişafı üçün potensialın aşkarlanması istiqamətində müşahidə-tədqiqat aparılmış, mədəni müxtəliflik faktorunun regionun müsbət turistik imicinin formalaşmasına təsiri dəyərləndirilmiş, Azərbaycanda multikultural turizmin inkişafı üçün geniş imkanlara malik bu

| | |
|---|---|
| | destinasiya ətraflı təhlil olunmuşdur. Ezamiyyət vaxtı tədqiqat işi əsasən Qəbələ şəhəri, onun ətraf qəsəbələri (Nic, Bum, Vəndam) və müxtəlif kəndlərində (Laza, Durca, Çuxur Qəbələ, Nohurqışlaq və. s.) aparılmışdır. Səfər dövründə Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi nəzdində fəaliyyət göstərən Qəbələ Turizm İnformasiya Mərkəzinin müəyyən etdiyi turizm marşrutu üzrə ekspedisiya keçirilmişdir.<br>Ekspedisiya zamanı Qəbələ rayonu Tarix-Diyarşünaslıq Muzeyi, İsmayıl bəy Qutqaşınlının ev muzeyi, Qəbələ şəhər Heydər Əliyev mərkəzi, İdman-atçılıq mərkəzi, Qəbələ atıcılıq klubu, "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi, "Qəbələnd" əyləncə mərkəzi, Golf mərkəzi, Qəbələ şəhər Cümə məscidi, Məhəllə məscidi, Şəkkizgüşəli məscid, Yeni məscid, Azərbaycandakı Alban-Udi xristian dini icması, Müqəddəs Yelisey adına Cotari Kilsəsi, Göy və Bulun adlı kilsələr, "Azərbaycan Udi Ocağı" tarixi etnoqrafik muzey, Abdall məhəllə məscidi, Yalağaclı məhəllə məscidi, – Nic qəsəbəsi, "Qəbələ" Dövlət Tarix Bədii Qoruğu, Qəbələ Arxeoloji Mərkəzi, Qəbələnin Qədim Qala divarları (Səlbir qala) - Çuxur Qəbələ, Nohur gölü - Nohurqışlaq kəndi, "Yeddi gözəl" şəlaləsi - Vəndam qəsəbəsi, Gavur qalası – Bum qəsəbəsi, Mucuq şəlaləsi – Laza kəndi kimi turistik destinasiyalarda müşahidələr aparılmışdır. Müşahidələr nəticəsində, Qəbələ rayonunda multikultural turizmin inkişafı üçün əsas güclü tərəflər və imkanlar SWOT-analiz metodu əsasında müəyyən olunmuşdur. Bu üsulla multikultural turizmin inkişafı üçün zəruri olan əhalinin etnik tərkibi, etnik azlıqların kompakt məskunlaşdığı yaşayış məntəqələri, dini bayramları, etno-mədəni mərasimləri, kütləvi şəkildə qeyd olunan milli bayramlar, turizm festivalları haqqında reallığı əks etdirən faktlar aşkarlanmışdır. Həmçinin turizmin inkişafı üçün mühüm faktorlardan sayılan fiziki-coğrafi vəziyyət, iqlim, əhalinin sayı, əhalinin məşğulluq səviyyəsi, inkişaf etmiş nəqliyyat infrastrukturu, milli parkların və s. mövcudluğu təyin olunmuş və hazırki vəziyyəti dəyərlindirilmişdir. Qeyd etmək vacibdir ki, Qəbələ rayonunda yerləşən dini obyektlər ziyarət olunub, dini icmaların başçıları ilə müzakirələr aparılmışdır, bu da Qəbələ rayonunun SWOT analizi ilə qiymətləndirilməsi zamanı obyektiv nəticələr əldə etməyə yardımçı olmuşdur. Əldə edilən elmi nəticə odur ki, Qəbələ rayonunda multikultural turizmin inkişafı üçün güclü tərəflərlə zəif tərəflər arasında münasibət kəskin xarakterli deyildir və gəldiyimiz qənaətə görə zəif tərəflərin neytrallaşması imkanları geniş, güclü tərəflərin daha da möhkəmləndirilməsi perspektivləri aydın və yetərlidir. Qəbələ rayonunda multikultural turizmin inkişafı üçün potensialın SWOT təhlili ilk dəfə aparılması onun yenilik dərəcəsidir. |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | *(burada doldurmalı)*<br>Layihə üzrə avadanlığın alınmaması və saytın qurulması üçün maliyyənin ayrılmaması səbəbindən iş 70 faiz həcmində yerinə yetirilmişdir. |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | *(burada doldurmalı)*<br>- Layihədə Azərbaycan elmində ilk dəfə olaraq cəlbedici turistik destinasiyaların yaradılmasında tədbiqi tapşırıqları yerinə yetirmək üçün turistik rayonlaşdırmada multikultural yanaşmadan istifadə edilmişdir. Tədqiqat zamanı işlənən "multikultural destinasiya" anlayışı altında digərlərindən mədəni cəhətlərinə görə fərqlənən, ərazisində mədəni, etnik və ya dini müxtəliflik xüsusiyyətlərini daha detallı təsəvvür etməyə icazə verən regionlar - "multikultural fraqmentlər" (rayonlar, ərazilər, destinasiyalar) müəyyən edilmişdir. Coğrafiyanın kartoqrafik instrumentarisinə, turizmdə geniş istifadə olunan |

| | |
|---|---|
| | klaster yanaşması, SWOT analiz metoduna əsaslanan ərazinin multikultural rayonlaşdırılması multikultural turistik desyinasiyaların yaranmasını elmi nöqteyi-nəzərdən araşdırılmış və bu sahənin inkişafı üçün yeni praktik tövsiyyələri hasil edilmişdir.<br>- Azərbaycanda yaşayan etnik qruplar haqqında oxuculara qısa məlumat vermək cəhdlərinə bir neçə elektron mənbədə rast gəlinsə də, lakin bir çox belə mənbələrdə Azərbaycanda olan bütün etnik qruplar əhatə olunmur və onlar haqqında verilən məlumatlar bəzən səthi, qeyri-dəqiq və ciddi elmi mənbələrə əsaslanmır. Layihə çərçivəsində “Etnik müxtəliflik” bölməsi üçün əldə olunan nəticələr Azəbaycanda yaşayan etnik qruplar haqqında bir rəqəmsal mənbədən aydın, çaşqınlıq yaratmayan elmi istinadlara əsaslanan qısa və dolğun ensiklopedik məlumat əldə edilmişdir. |
| **4** | Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |
| | *(burada doldurmalı)*<br>- Mədəni müxtəliflik turizmin inkişafinin faktoru kimi (lənkəran rayonunun nümunəsində). “İqtisadi artım və ictimai rifah” Beynəlxalq elmi-praktik konfransın materialları (Elmi redaktorlar: i.e.d., prof. Tərbiz Əliyev, i.f.d., dos. Allahyar Muradov, i.f.d., dos. Rəsmiyyə Abdullayeva) Bakı 2018, 739 səh. , s. 523-530;<br>- The impact of intercultural communication on the formation of linguocultural identity, tezis, Bakı Mühəndislik Universiteti, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş gənc tədqiqatçılarının III Beynəlxalq Elmi Konfransının materialları, Bakı, 2019, s.829-831;<br>- Пословицы и поговорки как средства формирования мультикультуральных ценностей у студентов, tezis, Azərbaycan Dillər Universiteti. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" II Beynəlxalq elmi konfransın məruzələrinin tezisləri, Bakı,Mütərcim, 2019, s.209-210;<br>- Роль мультикультурального туризма в ознакомлении с культурным наследием Азербайджана", məqalə, Bakı Slavyan Universiteti, Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş X Beynəlxalq Elmi Konfransın materialları. Bakı, Mütərcim, 2019, s.4-5; |
| **5** | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)* |
| **6** | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | *(burada doldurmalı)*<br>- 20-25 avqust 2018-ci il tarixlərində layihə üzrə nəzərdə tutulmuş Lənkəran iqtisadi rayonuna daxil olan Lənkəran rayonuna ezamiyyət həyata keçirilmişdir. Ezamiyyətə layihə içraçlarından biri olan Əsadov Cavid Alı oğlu göndərilmişdir. Ezamiyyət zamanı multikultural turizmin inkişafı üçün potensialın aşkarlanması istiqamətində müşahidə-tədqiqat aparılmış, multikulturalizm faktorunun |

regionun müsbət turistik imicinin formalaşmasına təsiri dəyərləndirilmiş, Azərbaycanda multikultural turizmin inkişafı üçün geniş imkanlara malik destinasiyalardan biri ətraflı təhlil olunmuşdur. Qeyd olunan ezamiyyətin ətraflı hesabatı fonda təqdim olunmuşdur.

- 14.01.- 18.01.2019-cu il tarixlərində layihə üzrə nəzərdə tutulmuş Qəbələ rayonuna ezamiyyət həyata keçirilmişdir. Ezamiyyətə layihə içraçısı Əsədov Cavid Alı oğlu göndərilmişdir.

**7** Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa)

*(burada doldurmalı)*

- 05-11 avqust 2018 – ci il tarixlərində layihə icraçılarından biri olan Əsədov Cavid Alı oğlu tərəfindən Quba-Xaçmaz iqtisadi rayonunun ərazisinə ekpedisiya xarakterli səfər həyata keçirilmişdir. Ekspedisiya zamanı Quba şəhəri ilə yanaşı Qubanın bir neçə kəndlərinə və Qusar rayonunun Kuzun kəndinə səfər olunmuşdur.

**8** Layihə üzrə digər tədbirlərdə iştirak

*(burada doldurmalı)*

- Cəfərquliyeva M.R. 23-24 may 2018-ci il, Azərbaycan Milli Elmlər Akademiyasının Qafqazşünaslıq Institutu tərəfindən keçirilən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş “Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr” Beynəlxalq Elmi Konfransda iştirak etmişdir;
- Cəfərquliyeva M.R. 25 iyun, 2018-ci il tarixində ABŞ-ın Phoenix şəh., Mesa Community College, Beynəlxalq Simpoziumda iştirak etmişdir;
- 20.09.2018-ci il tarixində layihə icrasıçısı Əsədov Cavid Alı oğlu Azərbaycan Turizm Forumunda iştirak etmişdir. Qeyd edək ki, forum Azərbaycan turizm sənayesinin ən böyük tədbirlərindən biridir. Forumda turizm mütəxəssisləri və bu sahəyə marağı olan şəxlər iştirak edir. İcraçı Forumun “Turizmdə strategiyalar” və “Turizmdə innovasiyalar” adlı iki panelində dinləmələrdə iştirak etmişdir.
- 18. 10. 2018-ci il tarixində Cəfərquliyeva Mayya Rzaqulu qızı və Abbasova Aygün Akif qızı Azərbaycanda ilk dəfə keçirilmiş Milli Turizm Sammitində iştirak etmişdirlər. Sammit zamanı Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru *Florian Zenqstşmidlə* disskusiya aparılmış, adı çəkilən qurumun rəhbəri tərəfindən Siyasi bölmənin müdiri Məhəmməd Muradov və mədəniyyət\multimədəniyyət üzrə aparıcı eksperti Elşən Mustafayevlə təcrübə mübadiləsi məqsədilə görüşün keçirilməsi məqsədə uyğun olduğu bildirildi;
- Polşa Respublikasının Daxili İşlər və Administrasiya Nazirliyi Avropa İttifaqının maliyyə dəstəyilə həyata keçirilən “Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək” - MOBİLAZE (Support to the Implementation of the Mobility Partnership with Azerbaijan - MOBILAZE) layihəsi çərçivəsində “Diaspora, etnik azlıqlar və miqrasiya məsələləri” mövzusunda 10-14 dekabr 2018-ci il tarixlərində Polşa Respublikasına Azərbaycan nümayəndə heyyəti tərkibində rəsmi səfər təşkil olunmuşdur. Nümayəndə heyyətinin tərkibi Azərbaycanı Prezident Administrasiyası, Dövlət Miqrasiya Xidməti, Diasporla İş üzrə Dövlət Komitəsi, Bakı Dövlət Universiteti və Bakı Slavyan Universitetinin əməkdaşlarından ibarət beş gənc mütəxəssis və xaricdə təhsil alan bir azərbaycanlı tələbədən ibarət idi. Lahiyə icraçısı Əsədov Cavid Alı oğlu səfər zamanı etnik, milli və dini azlıqlarla əlaqələrin tənzimlənməsi, etnik, milli və ya dini mənsubiyyətə görə zorakılığın monitorinqi, immiqrasiyanın tənzimlənməsi, regional perspektiv kimi multikulturalizmin tənzimlənməsi və əcnəbilərin ölkəyə inteqrasiyasının tənzimlənməsi mövzularında müvafiq dövlət qurumlarında keçirilən təlimlərdə iştirak etmişdir.

**9** Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.

| | |
|---|---|
| | çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | *(burada doldurmalı)*<br>- Cəfərquliyeva M.R. 23-24 may 2018-ci il, Azərbaycan Milli Elmlər Akademiyasının Qafqazşünaslıq Institutu tərəfindən keçirilən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş “Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr” Beynəlxalq Elmi Konfrans, “Azerbaijan’s formula of multiculturalism: concepts, definitions and aspirations” mövzusunda məruzə ilə çıxış etmişdir;<br>- Cəfərquliyeva M.R. 25 iyun, 2018-ci il tarixində ABŞ-ın Phoenix şəh., Mesa Community College, Beynəlxalq Simpozium“Multiculturalism in Azerbaijan: “identity policy” and “the policy of recognition” mövzusunda məruzə ilə çıxış etmişdir;<br>- Layihə icraçısı Əsədov Cavid Alı oğlu 18 oktyabr 2018-ci il tarixində AMEA-nın İqtisadiyyat İnstitutunun 60 illik yubileyinə həsr olunan “İqtisadi artım və ictimai rifah” mövzusunda beynəlxalq elmi konfransda iştirak etmiş və “İqtisadi fəaliyyət sahələri” adlı II bölmədə “Mədəni müxtəliflik turizmin inkişafının faktoru kimi (Lənkəran rayonunun nümunəsində)” adlı məruzə ilə çıxış etmişdir;<br>- Cəfərquliyeva Mayya Rzaqulu qızı ***22 noyabr 2018-ci il*** tarixində Rusiyada N.A. Dobrolyubov adına Novqorod Dövlət Linqvistik Universitetində keçirilmiş IV Beynəlxalq elmi-praktiki konfransın “Etnokonfessional mühitın harmoniyalaşmasının nəzəriyyəsi və təcrübəsinin aktual məslələri”/ «Актуальные вопросы теории и практики гармонизации этнорелигиозной сферы»/ bölməsində “Din və multikulturalizm: nəzəri aspektlər və Azərbaycanda reallaşdırma təcrübəsi” mövzusunda çıxış etmişdir;<br>- Layihə icraçısı Əsədov Cavid Alı oğlu 10.12.2018-ci il tarixində Polşa Respublikasının Daxili İşlər və Administrasiya Nazirliyi, Varşava Universitetinin Türkologiya və Mərkəzi Avropa xalqları kafedrasının nəznində fəaliyyət göstərən Azərbaycanşünaslıq mərkəzinin, "Yasmin" - Mədəniyyətlərarası əməkdaşlıq dostları cəmiyyətinin dəstəyi ilə Varşavada Multikulturalizm mərkəzində “Azərbaycan multikulturalizmi: etnik və dini müxtəliflik” mövzusunda “ çıxış etmişdir.<br>- Layihə icraçısı Abbasova Aygün Akif qızı 29 Aprel 2019-cu il tarixində “The impact of intercultural communication on the formation of linguocultural identity” mövzusunda məruzə ilə, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş gənc tədqiqatçılarının III Beynəlxalq Elmi Konfransda çıxış etmişdir;<br>- Layihə icraçısı Abbasova Aygün Akif qızı 6 May 2019-cu il tarixində “Пословицы и поговорки как средства формирования мультикультуральных ценностей у студентов” mövzusunda məruzə ilə Azərbaycan Dillər Universiteti. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" II Beynəlxalq elmi konfransda çıxış etmişdir;<br>- Layihə icraçısı Abbasova Aygün Akif qızı 9 May 2019-cu il tarixində “Роль мультикультурального туризма в ознакомлении с культурным наследием Азербайджана” mövzusunda məruzə ilə, Bakı Slavyan Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş X Beynəlxalq Elmi Konfransda çıxış etmişdir. |
| **10** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |

| | |
|---|---|
| | *(burada doldurmalı)* |
| **11** | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>- 11.01.2019-cu il tarixində əvvəlcədən aparılmış danışıq nəticəsində Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının Sədri Robert Baqratoviç Mobili ilə Cəfərquliyeva Mayya Rzaqulu qızı və layihə icraçısı Əsədov Cavid Alı oğlunun iştirakı ilə Bakı şəhərində görüş keçirilmişdir. Görüş zamanı Robert Baqratoviç Mobiliyə layihə haqqında məlumat verilmiş və Qəbələ rayonuna nəzərdə tutulan ezamiyyət zamanı Alban-Udi Xristian dini icmasını ziyarət etmək, icma üzvlərinin həyat tərzi və adət ənələlərinin araşdırılması nəzərdə tutulduğunu bildirilmişdir. Öz tərəfindən layihənin məqsədlərini və Qəbələnin zəngin mədəni müxtəlifliyinin öyrənilməsini müsbət dəyərləndirən Alban-Udi Xristian dini icmasının Sədri Robert Mobili icmanın bugünkü durumu, onun keçdiyi tarixi inkişaf yolu və icmanın fəaliyyət göstərdiyi, udi xalqının kompakt halda yaşadığı Qəbələ rayonunun Nic qəsəbəsi haqqında ətraflı məlumat vermişdir. Eyni zamanda o, ezamiyyət dövründə icma ilə tanış olmaq və onun bugünki durumu haqqında yerində məlumat almaq məqsədilə Alban-Udi Xristian Dini İcmasının sədr müavini, keşiş Rafik Danakarinin icraçını müşahidə edəcək şəxs təyin olunduğu bildirilmişdir;<br>- Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmidlə əlaqə qurulmuşdur;<br>- Lənkəran Turizm İnformasiya Mərkəzinin müdiri Əzimov İlqar Firudun oğlu ilə görüş keçirilmiş, müsahibə götürülmüşdür. |
| **12** | Xarici həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>- ABŞ-da dinlərarası dialoq üzrə 1964 ildə təsis olunan ilk elmi jurnal "The Journal of Ecumenical Studies" təsisçisi prof. Leonard Swidler və jurnalın redaktoru prof. Nancy Krody;<br>- Polşa Respublikası Daxili İşlər Nazirliyinin aparıcı eksperti, Dr. Radoslav Strijevski;<br>- Wojciech Przygoński, Polşanın Podlasie vilayətinin Voyevodluğunda Milli və etnik azlıq məsələləri üzrə səlahiyyətli şəxs, etnik azlıqların icmalarının monitorinqi və koordinasiyası üzrə ekspert;<br>- Pavel Jessa, Polşanın Podlasie Vilayətinin Voevodluğunun Təhsil, idman və turizm Departamentinin icraçı direktoru, azsaylı xalqlar üzrə ekspert. |
| **13** | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| **14** | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |
| **15** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)*<br>- 2 İyun- 14 İyul,2018-ci il tarixlərində Cəfərquliyeva M.R. Filadelfiya şəhərində yerləşən Temple Universiteti, Dialoq İnstitutunda ABŞ-ın Dövlət Departamenti Təhsil və Mədəniyyət işləri üzrə Byuro tərəfindən həyata keçirilən Dini plüralizm istiqamətində SUSİ-2018 proqramında iştirak etmişdir.<br>- Layihə icraçısı Əsədov Cavid Alı oğlu ABŞ səfirliyinin dəstəyi ilə ADA Universitetində təşkil |

| | |
|---|---|
| | edilmiş "Tədqiqat Bacarıqlarının və Beynəlxalq Əlaqələrin Gücləndirilməsi" layihəsi çərçivəsində oktabr 2018 – fevral 2019-cu il tarixləri arasında "Sosial tədqiqtalar metodu" və "Akademik yazı" kurslarında iştirak etmiş və kursun yekunu olaraq "Azərbaycanda multikulturalizm nə üçün mümkündür" adlı tədqiqat işini yerinə yetirmişdir. |
| **16** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | *(burada doldurmalı)* |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
**Quliyeva Mülayim Sahib qızı**

_________________
*(imza)*
" __" ________ 201_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
**Cəfərquliyeva Mayya Rzaqulu qızı**

_________________
*(imza)*
" __" ________ 201_-ci il